

ADIGÖZƏL NURİYEV

# UĞUR GEDƏN YOLUN YOLÇUSU

Sözün bağrını yardığımız, ta sözün də sözümüzə baxmadığı bir zamanda ədəbiyyata gəlmək; bənzərsiz, aktual mövzularla böyük bir oxucu auditoriyası qazanmaq çox çətindir. İnsan öz yerini düzgün müəyyən etdikdə böyüyür, insan zəkasının, qüdrətinin sonsuzluğuna əmin olur. Arxayınlaşmamaq, axtarış, sadəlik, müdriklik, qeyrət, hünər – budur tam insan, bütöv insan olmaq. Butun bu xüsusiyyətləri cənub zonamızın dəyərli xanımı  Səbahət xanım İsmayılovada gördüm...

Söz sahibi olanlar, sözdən qala quranlar ulu Tanrıya ən yaxın insanlardı. Bütün yaranmışlar uca Tanrı ruhunun  bir parçasıdır. Ən böyük parçası isə söz-sənət sahibləridir. Həyatda elə insanlar var ki, bir neçə istedad sahibidir, lakin öz istedadlarını üzə çıxarmaqda tərəddüd edirlər. İllərlə istedadına inandığım, dost deyib güvəndiyim Səbahət xanım İsmayılovanın düşüncə və fikirləri məni daha çox valeh etdi...

Yaradıcılığında yeni fikirlər, az işlənən sözlər üstünlük təşkil edir. Şeirləri düşündürücüdür. Şairənin «Əllərin yetməyən bir mələyəm mən» kitabı onun haqqında çox söz deyir:

*Mən ayrı bir eşqin zirvəsindəyəm,*
*Əllərin yetməyən bir mələyəm mən.*
*Mənim təbiətim tamam başqadır,*
*Əzəldən həyatda bax, beləyəm mən.*

Səbahət xanım İsmayılova ixtisasca müəllimədir, cəmiyyətə inteqrasiya olunmuş bir vətəndaşdır, əməyinə verilmiş çoxlu titulları var.

Şairə, jurnalist, müəllimə olan Səbahət İsmayılova  “Qızıl qələm», «Azərbaycan bayrağı» media mükafatçısıdır. «Nəsimi” poeziya diplomu, “Vətənpərvərlər cəmiyyəti”nin fəxri diplomu; 44 günlük II Vətən Müharibəsi dövründə yazdığı vətənpərvərlik şeirlərinə görə «İlham çeşməsi» qəzetinin fəxri diplomuna layiq görülmüşdür.

Bir çox antalogiyalarda çap olunub.

Azərbaycan Jurnalistlər Birliyinin üzvü və Turan Yazarlar Birliyinin üzvüdür.

Ailəlidir, iki övladı var.

Biz də Səbahət İsmayılovaya atdığı hər addımda uğurlar arzulayırıq...